# Qəbələdə sosial-iqtisadi inkişaf uğurla davam edir

## 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat

# MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Bu baxımdan fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda bu ildən etibarən əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. Artıq bu istiqamətdə işlərə başlanılmış və ayrı-ayrı kənd inzibati ərazilərində 900 hektar yeni fındıq bağları salınmışdır.

Keçən ildə uzun fasilədən sonra rayonumuzda barama və tütün istehsalına başlanılmışdır. Keçən il rayonumuzun kümçüləri 389 kq barama istehsal etmişlər. Cari ildə isə 55 nəfər kümçü tərəfindən 2860 kq barama istehsal edilmişdir. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızından etibarən tut tinglərinin əkilməsinə başlanılmışdır ki, bu da gələcəkdə bizə barama istehsalının artırılmasına şərait yaradacaqdır. Barama istehsalının artması ilə əlaqədar rayonda barama qəbulu və qurutmaxanası məntəqəsinin yaradılması nəzərdə tutulmuşdur.

Eləcə də cari ildə 70 ha sahədə tütün əkilmişdir. Hazırda tütün sahələrində becərmə və tütün qırımı işləri aparılır.

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır. 2017-ci ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə laboratoriya analizinə gətirilmiş müxtəlif kənd təsərrüfatı bitkilərinin toxumları yoxlanılmış və onlara müvafiq rəylər verilmişdir. Rayonda fəaliyyət göstərən 5 özəl toxumçuluq təsərrüfatlarının yetişdirdiyi toxumluq əkin sahələrində abrobasiya aparılaraq ortaq məhsuldarlıq müəyyən edilmişdir. Biçilmiş toxumluq sahələrin məhsuldarlığı 35-40 sentner olmuşdur. Qeyd etmək lazımdır ki, rayonda növbəti ilin taxıl əkini üçün kifayət qədər yüksək kondisiyalı toxum bazası mövcuddur.

2017-ci ilin birinci yarısında Dövlət Meşə Fondu torpaqlarında 110 ha meşə əkini aparılmışdır. Bundan əlavə 2 kq tut toxumu və 30 kq ərik toxumu tədarük edilmişdir.

Hazırda kənd təsərrüfatı işlərinin aparılması üçün rayonda 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir. Bundan əlavə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayonda 72 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı, 420 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskavator və s. kənd təsərrüfatı maşınları mövcuddur. Kənd təsərrüfatı texnikası parkı da daim təzələnir.

Birinci yarımildə rayonda mal-qaranın sayı 46295 baş, o cümlədən inək və camışlar 23460 baş, qoyun və keçilər 192300 baş, donuzlar 1088 baş olmuşdur.

Qəbələdə 2 müasir heyvandarlıq kompleksi və 2 ədəd kiçik həcmli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra rayon əhalisinin ətə və südə olan tələbatının ödənməsi təmin olunmuşdur. Rayonda sanitariya- gigiyena nöqteyi nəzərindən, həm də baytarlıq nəzarətinin təmini üçün mərkəzləşdirilmiş ətkəsmə məntəqəsinin yaradılması nəzərdə tutulmuşdur.

Hazırda mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 9 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Keçən 6 ay ərzində süni mayalanma mütəxəssisləri tərəfindən 3874 baş inək və düyələrdə süni mayalanma aparılmış və süni mayalanmış heyvanlardan 1448 baş yüksək genetik potensiala malik buzovlar alınmışdır. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova subsidiya verilir. 2017-ci ilin 6 ayında 918 baş süni mayalanmadan alınmış buzovlara subsidiya hesablanmışdır. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir. Ona görə də heyvan sahibləri heyvanların mayalandırılmasında süni mayalamaya üstünlük verirlər. Nəticədə mal-qaranın cins tərkibi tədricən yaxşılaşır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum demək olar ki, sabitdir. 2017-ci il birinci yarısında 8 baş iri buynuzlu heyvanın bruselloza qarşı müayinə zamanı xəstə olduğu müəyyən edilmişdir ki, həmin heyvanlar da təsərrüfatdan çıxarılmışdır. Digər yoluxucu xəstəliklərdabaq, qarayara, leptesprioz, çiçək və s. müşahidə edilməmişdir.

Rayon balıqyetişdirmə zavodu 2017-ci ilin altı ayında Kür çayına 20450 ədəd kür qızıl balığı buraxılmasını təmin etmişdir. İlin əvvəlindən balıqlardan 150.000 ədəd kürü götürülmüş və hazırda zavodda həmin kürülərdən əldə edilmiş 90000 ədəd körpə balıq yetişdirilir.

Pay torpaqlarının könüllülük prinsipi əsasında birləşdirilərək iri təsərrüfatların yaradılması nəzərdə tutulmuşdur. Bu səbəbdən hər kənddə bir və ya bir neçə iri taxılçılıq təsərrüfatlarının yaradılmasının səmərəliliyini nəzərə alaraq torpaq sahibləri arasında təbliğat işlərinin genişləndirilməsi diqqətdə saxlanılır.

Bakı şəhərində 2006-cı ildən təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak edirlər. 2017-ci ilin altı ayında həmin yarmarkalarda 15,5 ton tumlu, 12 ton qərzəkli meyvələr və 2,5 ton müxtəlif tərəvəz məhsulu satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam etdirilir.

Ölkə prezidenti cənab İlham Əliyevin aqrar sahəyə daim qayğı göstərməsi və bu sahədə rayonda görülən işlər bizə deməyə imkan verir ki, rayonumuzun aqrar sahəsi bundan sonra daha da inkişaf edəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci ilin ötən dövründə informasiya şəbəkələrinin genişləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmaqla vətəndaşların bütün müraciətlərinə baxılması təmin edilmişdir.

Cari ilin birinci yarısında rayon icra hakimiyyətinə ümumilikdə 415 ərizə daxil olmuşdur. O cümlədən 190 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 7 ərizə Milli Məclisdən, 10 ərizə Nazirlər Kabinetindən, 25 ərizə mərkəzi icra hakimiyyəti orqanlarından, 183 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur.

Vətəndaşlar tərəfindən göndərilən ərizələrin məzmunu əsasən onların mənzillə təmin olunması, müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlməsi və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

2017-ci ilin birinci yarısında vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, 6 ay ərzində 366 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər həyata keçirilmiş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də 2017-ci ilin ötən dövrü ərzində rayon icra hakimiyyəti başçısının 22 səyyar görüş-qəbulu olmuşdur. Qəbullarda 2268 nəfər iştirak etmişdir. Onlardan 168 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 144-ü həll edilmiş, 17 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 7 məsələnin həlli isə rayon icra hakimiyyətinin səlahiyyətlərinə aid olmadığına görə respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmışdır.

Görülmüş işlərin nəticəsidir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin birinci yarısında vətəndaşlardan daxil olan ərizələrin sayı 145 ədəd, şifahi müraciət edənlərin sayı isə 234 nəfər azalmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

İclasdakı yekun nitqində cənab İlham Əliyev bu il infrastruktur layihələrinin icrasının davam etdirildiyini, ölkədə qazlaşdırmanın səviyyəsinin artıq 93 faizə çatdırıldığını, elektrik təsərrüfatının yeniləndiyini, kənd yolları layihələrinin, içməli su layihələrinin icra olunduğunu bildirmişdir.

Cənab Prezident diqqətə çatdırıb ki, Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə 29 bina tikilib, "Ağ şəhər"də onlarla bina inşa olunub, 100-dən çox binada inşaat işləri aparılır.

Dövlət başçısı vurğulayıb ki, biz bu il də hərbi potensialımızın gücləndirilməsinə böyük diqqət göstərmişik. Ordu üçün yeni silahlar, ən müasir texnika alınmışdır. Ordumuz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilər. Buna baxmayaraq, Azərbaycan öz hərbi potensialını daha da gücləndirməkdə davam edəcək.

ABŞ-Azərbaycan münasibətlərindən də danışan cənab İlham Əliyev qeyd edib ki, iki ölkə arasındakı əlaqələr yeni mərhələyə qədəm qoyub. Bakıda keçirilmiş 24-cü Beynəlxalq Neft və Qaz Sərgisinə ABŞ prezidenti Donald Trampın ünvanlandığı məktubun əhəmiyyətindən danışan dövlət başçısı ABŞ dövlət katibi ilə bir neçə gün öncə İstanbulda keçirdiyi görüşü də yüksək qiymətləndirib.

Dövlət başçısı qeyd edib ki, dünyada narahatedici məqamların çoxalmasına baxmayaraq, ölkəmizdə sabitlik möhkəmlənib və bu sabitliyin mənbəyində Azərbaycan xalqı dayanır.

Prezident iclasda dövlət məmurlarının və onların ailə üzvlərinin davranış normaları ilə bağlı məsələyə də toxunub. Xalqa xidmət, təvazökarlıq, təkəbbürlü davranmamaq prinsiplərinin məmurların əsas həyat və fəaliyyət normasına çevrilməsinin zəruriliyi vurğulanıb. Dövlət başçısı bu məsələdə heç kimə güzəşt olunmadığını və bundan hamının nəticə çıxarmalı olduğunu bildirmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci ilin birinci yarısında rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2017-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri bundan sonra da həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**